*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 dekabr 2019-cu il № 99 (2416) Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

# “Vətənimizin hər qarış torpağı bizə əzizdir”



Dağlar qoynundayıq… Burada qış fəslinin özünəməxsusluğu, insanlara bəxş etdiyi ovqat digərlərindən fərqlənir. Ağ rəngə bürünmüş təbiət sanki yuxuya gedib. Ətrafda hökm sürən sakitlikdə ayağımızın altında qalan qarın yapıxmasını da aydın eşidirdik. İrəlilədikcə arxada qalan izlərin sonsuz olacağını düşünürsən. Ancaq yağan qar bir azdan ləpirlərin üstünü örtür. Ağ örtüyə bürünmüş dağlar daha əzəmətli görsənir. Havanın soyuq olmasına baxmayaraq, qəlbi Vətən eşqi ilə döyünən oğullarımız xidmətlərini uğurla davam etdirirlər. Onlar mənfur düşmənin qarşısına keçilməz sədd çəkiblər. Əsgərlərimizi çətin şəraitdə yüksək ovqatla xidmət edən görmək, onların döyüş hazırlığının, maddi-texniki bazasının nə qədər yüksək səviyyədə olduğuna şahidlik etmək bizi qürurlandırır.

Mayor Müzamil Məmmədov söhbətə cığır açaraq bildirir ki, Vətən müdafiəçilərinin döyüş ruhu çox yüksəkdir. “Ordu rəhbərliyinin cəbhə bölgəsinə səfərləri, hərbi qulluqçulara göstərilən diqqət və qayğı hər birimizin məsuliyyət hissini daha da artırır. Burada xidmət edənlər yaxşı bilirlər ki, yurdlarını, torpaqlarını qoruyurlar. Onlar hər an düşmən təxribatlarının qarşısını almağa hazırdırlar. İstənilən hava şəraitində dərslərin keçirilməsini, əsgərlərimizin mövzuları mənimsəməsini diqqətdə saxlayırıq. Çünki döyüş istənilən hava şəraitində başlaya bilər. Düşmənlə təmas xəttində olmağımıza baxmayaraq, məşğələlərin yüksək səviyyədə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Əgər dərslərdə, təlimlərdə şəxsi heyət yüksək uğurlar əldə edirsə, ixtisas vərdişlərinə və taktiki hazırlığa dərindən yiyələnirsə, öz gücünə və döyüş bacarığına inam qazanırsa, deməli, onun mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Bunlar isə hazırlıqlı, təcrübəli zabit, gizir və əsgərlərimizin Vətən sevgisi ilə əlaqədardır. Hərbçi peşəsi qürurverici, ucalıq gətirən peşədir. Çox sevinirəm ki, mən də bu şərəfli peşəni seçmişəm."

Əsgərlərimizin təminatından danışan zabit bildirir ki, şəxsi heyət qış geyimi ilə təmin edilib. “Onlar döyüşə hazır vəziyyətdədirlər. Üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetiririk. Hər an Ali Baş Komandanın döyüş əmrinə hazırıq."

Zabitlə birgə döyüş mövqeyinə yaxınlaşırıq. Əsgərlərimizə təlimat keçən zabit Həsənağa Abdullazadə onlara döyüş növbəsində ayıq-sayıq olmağı, qarşı tərəfdə hər hansı bir fəaliyyət müşahidə olunarsa, dərhal məlumat vermələrini və ən əsası xidmət zamanı təhlükəsizlik qaydalarına ciddi əməl etməli olduqlarını bir daha xatırladır. Təlimatdan sonra zabit söhbət əsnasında şəxsi heyətin hazırlığından danışaraq bildirir ki, əsgərlərimiz daim ayıq-sayıqdırlar.

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə Nazirliyinin Müdafiə Sənayesi İdarəsinin və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin yeni təyin olunan rəisləri şəxsi heyətə təqdim edilib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə general-mayor Namiq Poladov və general-mayor Mübariz Rzayev müvafiq olaraq Müdafiə Nazirliyinin Müdafiə Sənayesi İdarəsinin və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin rəisləri vəzifələrinə təyin olunublar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dekabrın 19-da Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov vəzifələrə təyin olunan hərbi qulluqçuları şəxsi heyətə təqdim edib. Ali Baş Komandanın ordumuz qarşısında qoyduğu tapşırıqları bir daha şəxsi heyətə çatdıran Silahlı Qüvvələri Baş Qərargah rəisi xidməti fəaliyyətin daha səmərəli təşkili ilə bağlı tövsiyələrini verib.



# Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə “Açıq qapı” günü keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, ictimai nəzarətin gücləndirilməsi, şəffaflığın təmin edilməsi, ordu və xalq birliyinin daha da möhkəmləndirilməsi, əsgər ailələri ilə aparılan işin səmərəliliyinin daima artırılması məqsədilə dekabrın 30-da Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün “Açıq qapı” günü təşkil olunacaq.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əsgərlərin yaxınları, ictimaiyyət nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış, məişət şəraiti ilə tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanalara və yeməkxanalara baş çəkəcəklər.

"Açıq qapı" günündə hərbi hissələrin komandanlığının valideynlərlə görüşləri təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcək.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 18-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Martin Şuster aparıblar.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***20 dekabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Vətənimizin hər qarış torpağı bizə əzizdir”

(Əvvəli 1-ci səhifədə)

- Şəxsi heyət dərs və məşğələlərdə əldə etdiyi təcrübə əsasında uğur qazanır, ancaq heç kəs bu uğurlarla kifayətlənmir, - deyə zabit bildirir. - Xidmətimizi elə qururuq ki, şəxsi heyətin döyüş vərdişləri daim inkişaf etsin. Əsgərlərimiz mövzuları dərindən mənimsəyir, əvvəl keçirilən dərsləri mütəmadi olaraq təkrarlayırlar. Hər birimiz yaxşı bilirik ki, yüksək döyüş hazırlığı düşmən üzərində qələbəmizi təmin edəcək amillərdəndir. Bu gün mənfur düşməni istənilən an torpaqlarımızdan qovub çıxarmaq iqtidarındayıq. Bunun üçün güclü, yenilməz ordumuz var. Mütəmadi olaraq keçirilən təlimlər hər birimizin döyüş, mənəvi-psixoloji və fiziki hazırlığımızın yüksək səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirir. Hamımızın qəlbində bir arzu döyünür - düşmən tapdağı altında olan torpaqlarımızı işğaldan azad etmək. Aprel döyüşləri və Günnüt zəfəri bu müqəddəs yolun sonuna az qaldığını aydın şəkildə göstərdi."



Vətənə olan sevgisindən danışan əsgər Səməd Abdullayev bildirir ki, bütün sevgilər qarşılıqlı olanda gözəl olur. Ancaq qoynunda böyüyüb boya-başa çatdığın torpağı sevmək qarşılıq gözləmir. Doğma el-obasının vurğunu olan əsgər onun hər qarışını sevdiyini deyir. "Hər birimiz doğulduğumuz yerdən asılı olmayaraq, Vətənimiz doğma Azərbaycanımızı təmsil edirik. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni əsirgəməməliyik. Bu gün kişilik, şərəf və ləyaqət rəmzi olan bu formanı geyindiyim üçün qürur hissi keçirirəm. Ön xətdə xidmət etdiyim üçün sevinirəm. Hərbi xidmət çətindir, amma şəğını aydın şəkildə göstərdi."

- Hələ kiçik yaşlarımdan hərbi formaya marağım vardı, - deyə əsgər Pənah Səlimov sözə başlayır. - Orta məktəbi yaxşı oxuyurdum. Çağırışaqədərki hazırlıq fənnini də dərindən mənimsəyirdim. Hərbi bilikləri, hərbi vərdişləri mənimsədikcə orduya marağım daha da artırdı. Çağırış vərəqəsi gələndə sevindim. Artıq Vətənin keşiyində dayanan oğulların sıralarına qatılmaq vaxtım çatmışdı. Əynimə hərbi formanı geyindiyim gün sevincim yerə-göyə sığmırdı. Valideynlərimin qarşısında Vətənə sədaqət andı içdiyim günü həmişə xatırlayacağam. Təcrübəli komandirlərimizin sayəsində hərbi sirlərə dərindən yiyələnməyə başladıq. Silah, texnika ilə davranış qaydasını onlardan düzgün şəkildə istifadə etməyi öyrəndik. Günün nizam qaydasına uyğun olaraq, taktiki, atəş, mühəndis, topoqrafiya və digər məşğələlər keçirik. Nəzəri biliklərimizi ərazidə praktiki olaraq təkmilləşdiririk. İnanırıq ki, təcrübəmizi Qarabağ uğrunda gedən döyüşlərdə istifadə edəcək, yurdlarından didərgin düşən soydaşlarımızı el-obalarına qaytaracağıq.

Söhbətimizi əsgər Rəşad Məhərrəmovla davam etdiririk.

- Vətənimizin hər qarış torpağı bizə əzizdir, - əsgər Rəşad Məhərrəmov bildirir. - Ancaq elə yerlərimiz var ki, onun gözəlliyini seyr etməkdən doymursan. Buranın yazı da, qışı da gözəldir. Qış fəsli mənim üçün saflıq rəmzidir. Hər tərəf ağ rəngə boyanıb. Nağıllardan, rəvayətlərdən bildiyimiz kimi, ağ rəng təmizlik, dürüstlük rəmzidir. Peşəkar və qayğıkeş komandirlərimizin təbeliyində Vətəni qorumaqdan şərəfli nə ola bilər. Dövlətimizin, ordumuzun rəhbərliyinin diqqət və qayğısı nəticəsində bizim üçün ön xətdə yüksək şərait yaradılıb. Komandirlərimiz keçirilən dərslərin keyfiyyətinə ciddi nəzarət edirlər. Bizim əsas məqsədimiz Vətənə layiqli xidmət etmək, Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə xalqımıza qələbə sevincini yaşatmaqdır.

Əsgərlər Samir Həsənov, Şahin İsmayılov, Sərvan Mustafayev və digərləri Vətəni qorumaqdan qürur duyduqlarını, hər an ərazi bütövlüyümüzü bərpa etməyə hazır olduqlarını, evlərinə zəfər qazanmış döyüşçü kimi qayıtmaq istədiklərini bildirirlər.

Azərbaycanımızın ucqar guşəsində, Vətənin keşiyində ayıqsayıq dayanan əsgərlərimizlə tanışlıqdan duyğulandıq. Sevindik ki, ürəyi Vətən eşqi ilə döyünən igidlərimiz torpaq uğrunda döyüşə atılmaq, bizə qələbə sevincini yaşatmaq əzmindədirlər. Düşmənə atəş açan əliniz var olsun. Tezliklə hər birimizin qəlbində yanan qisas alovunu yolumuza məşəl tutacağıq, torpaqlarımızı işğaldan azad edəcəyik. O zaman durduğumuz bu zirvələrdən xalqımızın qəlbinə əbədi olaraq Qələbə sevincini həkk edirəcəyik!

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Əlahiddə Ümumqoşun Ordu Vətənimizin müdafiəsində üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir

*Güclü, qüdrətli ordusu olan hər bir dövlətin müstəqilliyi də sarsılmaz və əbədidir. Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ümummilli liderimizin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, doğma Naxçıvanımız güclü müdafiə qüdrətinə və müzəffər Əlahiddə Ümumqoşun Orduya malikdir.*



Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində son illər yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Ordu, birləşmə və hissələrdə müasir əsgər yataqxanaları, Əsgəri-Məişət Kompleksləri, Təlim-Tədris Mərkəzləri, Qərargah binaları, xəstəxanalar tikilib, sıra meydanı, idman şəhərcikləri salınıb.



Həyata keçirilən tədbirlər dislokasiya yerləri daimi yaşayış məntəqələri olan hərbi hissələrlə bərabər ön xətdə yerləşən hissə və bölmələri də əhatə edir. Hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu "Günnüt əməliyyatı" nəticəsində işğaldan azad edilmiş yeni mövqelərdə qısa zaman kəsiyində müasir əsgəri-məişət komplekslərinin inşa olunması Naxçıvanda ordu quruculuğunun qətiyyətlə aparıldığını göstərir.

2019-cu il ərzində Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzinin və "N" hərbi hissəsində zabit-gizir ailələri üçün 5 mərtəbəli, çoxmənzilli yaşayış binasının və istirahət parkının istifadəyə verilməsi muxtar respublikamızda ordu, birləşmə və hissələrin döyüş qabiliyyətinin və maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasının da diqqət mərkəzində saxlanıldığının əyani göstəricisidir. Dekabrın 7-də Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binasının istifadəyə verilməsi muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlərin məntiqi davamıdır.

Bu ilin ötən dövründə Naxçıvan şəhərindəki hərbi şəhərciyin yaşayış binalarında yenidənqurma işləri aparılıb, qarnizon uşaq bağçası və tam orta məktəbin binası təmir olunub, zabit yataqxanasında müasir sosial-məişət şəraiti yaradılıb və yeni istirahət parkları salınıb. Hazırda Naxçıvan şəhərindəki 2 qərargah binasında son tamamlama işləri aparılır, hər biri üçmərtəbəli 2 yataqxana binasının, hərbi zavodun, Naxçıvan Muxtar Respublikası Mərkəzi Hərbi Hospitalının, hərbi hava qüvvələri üçün yeni hərbi hissənin tikintisi davam etdirilir. Hərbi hissələr üçün anqarlar, ön mövqelərdə 2 əsgəri-məişət kompleksi tikilərək istifadəyə verilib, 2 tabor mərkəzi əsaslı təmir olunub.

Əsaslı təmirdən sonra "N" hərbi hissəsinin tabor mərkəzi şəxsi heyətin istifadəsinə verilib. Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev və rayon icra hakimiyyətinin başçısı tabor mərkəzində yaradılan şəraitlə tanış olublar. Bu il tamamı ilə yenidən əsaslı şəkildə təmir olunan 3 mərtəbəli binada zabit, gizir və əsgər heyətinin xidmət aparması üçün hər cür şərait vardır.

Binada yaradılan şəraitlə tanış olduqdan sonra şəxsi heyətlə görüş zamanı Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müdafiə qüdrəti durmadan artan muxtar respublikamızda yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tez-tez hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin xidmət şəraiti ilə maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə bərabər hərbi qulluqçularda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur. Bu gün tabor mərkəzində yaradılan şərait də növbəti qayğının ifadəsidir.

Tədbirdə əsgər Məmməd Vəliyev şəxsi heyət adından minnətdarlıq edib.

* * *

Naxçıvan Muxtar Respublikası ərazisindəki hərbi hissələrin birində tabor mərkəzi də əsaslı təmir edilib. 2009-cu ildə inşa edilmiş 2 mərtəbəli bina əsaslı təmirdən sonra şəxsi heyətin istifadəsinə verilib.

Əsgər yataqxanasının istifadəyə verilməsi münasibətilə şəxsi heyətlə görüşən Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev bildirib ki, bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. General-leytenant Kərəm Mustafayev yaradılan şəraitə və göstərilən qayğıya görə Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti, eləcə də zabit-gizir ailələri adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıq edib.

Tədbirdə əsgər Mətin Hüseynov şəxsi heyət adından minnətdarlığını bildirərək bundan sonra da məsuliyyətlə və şərəflə xidmət edəcəklərinə söz verib.

Başa çatmaqda olan 2019-cu il ərzində də təmas xətti boyu mövqelərini gücləndirən Əlahiddə Ümumqoşun Ordunun ucqar və çətin dağlıq şəraitdə yerləşən bölmələrində, dayaq məntəqələri və mövqelərində əsaslı təmir-bərpa işləri aparılaraq möhkəm müdafiə potensialı yaradılıb.

Ön xətdə xidmətin rahat və etibarlı təşkili məqsədi ilə inşa olunan binalarda əsgər və zabitlər üçün yataq yerləri, komandir heyəti üçün xidməti otaqlar, müxtəlif təyinatlı siniflər, idman zalları, tibb otağı, mətbəx, yeməkxana, əşya və ərzaq anbarları var. Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Mövqelərdə düşmən təxribatlarının qarşısını almağa hesablanmış tədbirlər görülərək müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb.



Soyuq qış aylarında Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən bütün mövqelərində əsgərlərimiz müasir kazarmalarda yaşayır, isti geyim və keyfiyyəti ərzaqla təmin olunurlar. Ən əsası odur ki, burada xidmət edən qəhrəmanların ürəkləri Vətənə, xalqa, doğma torpaqlarımıza sevgi və sədaqətlə doludur.

Peşəkar komandirlərimiz bütün imkanlardan istifadə edərək şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığı ilə məşğuldurlar. Zabitlərimiz öz bilik və bacarıqlarını döyüşçülərdən əsirgəmir, daim hərbi vətənpərvərlik tərbiyəsi aşılayırlar. Mürəkkəb dağlıq şəraitdə yerləşən bölmələrdə keçirilən məşğələlər zamanı şəxsi heyətə müxtəlif silah, texnika və qurğuların taktiki-texniki xüsusiyyətləri və istifadə qaydaları ilə yanaşı, yüksək dözümlülük, ərazinin relyef və iqlim xüsusiyyətlərini bilmək, təhlükəsizlik qaydalarına əməl etmək kimi mühüm amillər də öyrədilir.

Cari ildə ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin davamı kimi Naxçıvan Qarnizonunun çörək zavodunda yenilənmə aparılaraq ən müasir avadanlıqlar quraşdırılıb. 2009-cu ildən bəri hərbi hissələri əla və birinci növ buğda unundan hazırlanmış keyfiyyətli çörək məhsulu ilə təmin edən çörək zavodu bu il daha müasir avtomatlaşdırılmış sistemlərlə yenilənib. Kəmiyyət və keyfiyyət baxımından yenilənən müəssisədə dönər arabalı sobalar, buxar otaqları, xəmir yoğuran mikserlər, kündə kəsən və xəmir yuvarlayan maşınlar, xəmir tavaları, tava arabaları və çörək səbətləri görülən işi daha da asanlaşdırır.

Şəxsi heyətin gündəlik təzə çörəklə təmin olunduğu bu istehsal sahəsində çalışan insanlar aldıqları əmək haqqı ilə öz ailələrinin yaşayış səviyyəsini də yaxşılaşdırırlar.

Göründüyü kimi hər zaman dövlət qayğısını hiss edən və xalq-ordu birliyindən ruhlanan hərbi qulluqçularımız yüksək intizama və döyüş qabiliyyətinə malikdirlər. Xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin mövcud olması nəticəsində qələbə əzmi daha da artan Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti Naxçıvanımızın müdafiəsində cəsarətlə dayanır, müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

AZƏRBAYCAN ORDUSU

*Təlim*

# Döyüş hazırlığı məşğələlərdə artırılır

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyət xüsusi ayrılmış sahədə döyüş hazırlığı məşğələsi keçirdi. Gizir Elvin Canaliyev minaatan qurğusu barədə şəxsi heyətə dolğun məlumat verirdi. Əsgərlər minaatan qurğusunu komandirin əmrinə əsasən müəyyən vəziyyətə gətirdilər. Kapitan Fərid Musayev bildirdi ki, ön xəttin yaxınlığında mövqe tutduğumuz üçün döyüş hazırlığımızı artırmaq məqsədilə mütəmadi məşğələlər keçirik. Planlaşdırılmış qaydada həyata keçirilən dərslərdə şəxsi heyətin ixtisas, atəş və taktiki bilikləri təkmilləşdirilir. Döyüşdə nisbətən arxada yerləşən bölmənin "həyəcan" siqnalı ilə müəyyən edilmiş əraziyə çıxması, öz mövqelərini tutub düşmənə zərbələr endirməsi məşq edilir.*



Məşğələ rəhbəri gizir Elvin Canaliyev neçə ildir ki, təmas xəttində komandir kimi hər zaman şəxsi heyətinə nümunə olmağa çalışır.

- Minaatan qurğusunun taktiki-texniki xüsusiyyətlərini şəxsi heyətə aşılamaq üçün əlimizdən gələni edirik. Dağ-meşəlik və düzənlik ərazilərdə keçirilən praktiki məşqlərə cəlb olunan şəxsi heyət minaatan komplekslərindən şərti düşmənin yüngül zirehli texnikasını, canlı qüvvəsini və atəş nöqtələrini imitasiya edən, eləcə də təbii manеələrin arxasında yerləşən və müşahidə edilməyən digər hədəfləri məhv etmək tapşırıqlarını yerinə yetirirdi. Keçirilən məşqlərdə bölmələrin "döyüş" və "səfər" düzülüşü, hədəflərin aşkarlanaraq təyin edilməsi, atış yerinin seçilməsi, mövqenin dəyişdirilməsi və xüsusi hazırlıq üzrə normativlər icra edildi. Əsgərlər nəzəri biliklərini minaatan qurğusunda əməli surətdə nümayiş etdirirlər. Təlimlərdə müxtəlif məsafələrdən atəş açmağı mənimsəyirlər. Məşğələlərin səmərəli keçirilməsinin nəticəsidir ki, heyət üzvləri bütün mövzuları dərindən mənimsəyiblər. Əsgərlər verilən əmr və tapşırıqları peşəkarlıqla vaxtında icra edirlər. Bu təlimlərdə əsas məqsəd şəxsi heyətin biliklərinin təkmilləşdirilməsindən, eləcə də çətin şəraitdə müasir döyüş hazırlığının səviyyəsinin artırılmasından ibarətdir.

Gizir Elvin Canaliyev daha sonra qeyd etdi ki, şəxsi heyət komandanlığın müəyyən edilmiş döyüş hazırlığı planına əsasən nəzərdə tutulan tədbirləri ardıcıl yerinə yetirir. "Əsgərlərimiz yüksək döyüş əzminə, qələbə ruhuna malikdirlər. Onların hamısı bacarıqlı və biliklidirlər. Əsgərlər təkcə döyüş hazırlığı məşğələsində deyil, həm də digər məşğələlərdə də yüksək uğurlar əldə edirlər. Daim öz üzərlərində çalışır, hərbi biliklərini daha da artırırlar.

Əsgər Taleh Niftəliyev dedi:

- İşğal olunmuş ərazilərdə babalarımızın qəbirləri qalıb. Köçkünlük həyatı yaşayan insanlar həsrətlə doğma yerlərə qayıdacaqları günü gözləyirlər. Biz hərbçilər torpaqlarımızı işğaldan azad etməli, həmin insanların öz el-obalarına dönməsinə şərait yaratmalıyıq. Bundan ötrü biz əsgərlər silah və texnikanı həvəslə öyrənir, döyüş tapşırıqlarını həvəslə, məsuliyyətlə yerinə yetiririk. İnanıram ki, Ali Baş Komandanımızın döyüş əmri ilə qısa müddət ərzində torpaqlarımızı işğaldan azad edəcəyik.

Heyət nəfəri əsgər Rahim Mailov dedi:

- Əsgəri xidmətimi düzgün təşkil edir, verilən əmr və tapşırıqları vaxtında yerinə yetirirəm. Komandirlərimizin köməkliyi ilə hamımız bacarıqlı əsgər kimi formalaşmışıq. Verilən hər bir komandanı dəqiq yerinə yetirməyə qadirik. Keçirilən məşğələlərdə və təlimlərdə əldə etdiyimiz hərbi bacarıqlarımızı nümayiş etdiririk.

İstirahət vaxtı bitdikdən sonra məşğələ öz axarı ilə davam etdirildi...

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Gecə təlimi zamanı döyüş atışları icra edilib



*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda hərbi birliyin döyüş atışlı gecə təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ssenariyə uyğun olaraq təlimə cəlb olunan motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri düşmənin gecə vaxtı hücumunun ona müxtəlif istiqamətlərdə cavab zərbələrinin endirilməsi ilə dəf edilməsi və qoşunlarımızın müdafiədən əkshücuma keçməsi tapşırıqlarını icra ediblər.



# Qadın hərbi qulluqçularla görüş

*Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçuların və mülki işçilərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin nümayəndələri silsilə tədbirlər həyata keçirir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, plana uyğun olaraq şöbənin nümayəndələri hərbi hissələrdən birində şəxsi heyətlə görüşüb.

Görüşdə Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən yüzlərlə hərbi qulluqçu və mülki işlərdə çalışan qadınlarımızın da əməyinin daim yüksək qiymətləndirildiyi qeyd olunub.

Şöbə müdiri Zümrüd Səmədova Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirən Azərbaycan qadınının ölkəmizin müdafiə qüdrətinin artırılmasında və ərazi bütövlüyümüzün bərpa edilməsində də yaxından iştirak etdiyini bir daha vurğulayıb.

Görüşdə Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçuların və mülki işçilərin bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqət göstərəcəklərinə əminlik ifadə olunub.

Sonda qadın hərbi qulluqçuların və mülki işçilərin fikirləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəminində baş verən cinayətlərin ardı-arası kəsilmir. Bu yaxınlarda işğalçı ordunun bölmələrindən birində "dedovşina" zəminində daha bir cinayət hadisəsi üzə çıxıb.

Hadisə ilə bağlı araşdırma aparan müstəntiq Ardak Voskanyan Eçmiədzindən hərbi xidmətə çağırılan Artuş Armeni adlı əsgəri mütəmadi olaraq döydüklərinə, fiziki və mənəvi təhqirlərə məruz qoyduqlarına görə 3 hərbi qulluqçunun cinayət məsuliyyətinə cəlb edilməsi barədə hərbi hissəyə məktub göndərib.

Hərbi hissə komandirinin əmrinə əsasən, erməni hərbçiləri Vahram Arakelyan, Vazgen Budoyan və Samvel Arustamyan müstəntiqin sərəncamına göndəriliblər.

Faktla bağlı istintaq davam edir və bu işdə başqa hərbi qulluqçuların da iştirakı araşdırılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət yerlərini özbaşına tərk edənlərin sayı artır. İşğalçı orduda vəziyyət o qədər acınacaqlıdır ki, hətta zabitlər də hərbi hissədən qaçırlar. Bu yaxınlarda 4-cü dağ atıcı taborun iki bölük komandirinin hərbi hissədən qaçdıqları məlum olub.

Kapitan Vahe Mamacanyan və Stepan Avakyan hərbi hissəni özbaşına tərk ediblər.

Hər iki zabit keçən ay hərbi hissədə baş verən kütləvi dava zamanı müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu V. Badalyana baş nahiyəsindən ağır xəsarət yetirməkdə ittiham olunur.

Zabitlərin cinayət məsuliyyətinə cəlb olunacaqlarından qorxaraq hərbi hissədən qaçdıqları ehtimal olunur. Qaçanların tapılaraq geri qaytarılması üzrə tədbirlər davam etdirilir.

Faktla bağlı hərbi polis tərəfindən araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Hərbi liseydə Nəsiminin 650 illik yubileyinə həsr olunan tədbir keçirildi



*Ölkəmizdə 2019-cu ilin "Nəsimi İli" elan edilməsi ilə əlaqədar Azərbaycan Ordusunda da silsilə tədbirlər keçirilir.*

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan xalqının ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan rəsm və şeir müsabiqəsinin yekunlarına dair tədbir keçirildi.

Tədbirdə liseyin şəxsi heyəti, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik Müslüm Nəsirov tədbiri açaraq Prezident İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd olunması və 2019-cu ilin "Nəsimi İli" elan edilməsi haqqında sərəncamlarına uyğun olaraq respublikamızda, Müdafiə Nazirliyinin bütün idarə və təşkilatlarında keçirilən silsilə tədbirlər sırasına Hərbi liseyin də qoşulduğunu qeyd etdi.

- "Nəsimi İli"nin elan edilməsi böyük tarixi, ədəbi, elmi əhəmiyyətə malikdir. İmadəddin Nəsimi irsinin öyrənilməsi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar ulu öndər Heydər Əliyev tərəfindən atılıb. Ümummilli Liderin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq səviyyədə qeyd olunub. Həmin dövrdən etibarən İmadəddin Nəsiminin yaradıcılığı ilə bağlı çoxsaylı araşdırmalar aparılıb...

Zabit M.Nəsirov lisey rəisi general-mayor Bəkir Orucovun əmrinə əsasən, şeir yazmaq və rəsm çəkmək qabiliyyəti olan kursantlar arasında keçirilən müsabiqədən, onların milli-mənəvi dəyərlərimiz əsasında formalaşmasından söz açdı. Gənclərimizə Nəsimi kimi dəyanətli, cəsarətli, qətiyyətli, dönməz və mübariz olmağı tövsiyə etdi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov bildirdi ki, hərbi qulluqçular arasında milli-mənəvi dəyərlərin təbliğ olunması, onların hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi bizim əsas məqsədimizdir.

Dahi şairin həyat və yaradıcılığından bəhs edən zabit bildirdi ki, xalqımızın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. "Milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Ulu öndər Heydər Əliyev azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Ümummilli Lider deyirdi: "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".



Gülxar Məmmədova, Gülsəda Aman və Milli-Mənəvi Dəyərlərin Təbliği Birliyinin sədri Jalə Cəfərova çıxışlarında vurğuladılar ki, İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustadlarındandır. Nəsimi yaradıcılığında ana dilindən ustalıqla istifadə etmiş, anlaşıqlı üslubda, bir sözlə, xalqın dilinə yaxın üslubda yazmışdır. Ölkə başçısının mütəfəkkir şairin 650 illik yubileyi ilə əlaqədar imzaladığı Sərəncam Azərbaycan mədəniyyətinin, zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir.

Rəsm və şeir müsabiqəsində fəal iştirak edən bir qrup kursant fəxri fərmanlarla mükafatlandırıldı.

Hərbi liseyin kursantlarının dahi şairin qəzəllərindən ibarət kompozisiyası iştirakçılar tərəfindən alqışlarla qarşılandı.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin Nəsimi yaradıcılığına həsr etdikləri konsert proqramı ilə başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Döyüşdə şəxsi heyətin ruh yüksəkliyi əsas amildir"

*Ön xətdə yerləşən hərbi hissələrimizdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədə təşkil olunub. Həqiqətdir ki, yüksək mənəvi-psixoloji hazırlığa malik şəxsi heyət qələbəmizin təminatçısıdır.*



Yüksək səviyyədə və ən müasir standartlara uyğun tikilib istifadəyə verilən hərbi şəhərciklərimizdə şəxsi heyətin hərtərəfli hazırlığının, o cümlədən mənəvi-psixoloji hazırlığının artırılması istiqamətində görülən mühüm işlər göz önündədir. Məlumdur ki, zabit və əsgərlərimizin mənəvi-psixoloji hazırlığının artırılmasında ideoloji iş mühüm rol oynayır. Bu gün hər bir hərbi hissədə geniş, işıqlı, ekspozisiya quruluşu zəngin olan ideoloji otaqlar mövcuddur.

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində də hərbçilərimizin ictimai-siyasi hazırlığının artırılması məqsədilə hərtərəfli şərait yaradılıb. Burada yüksək tərtibatlı ideoloji otaq hərbi qulluqçularımızın istifadəsindədir. Otağın tərtibat zənginliyi diqqətimizi çəkir. Ədəbiyyat bölməsi ilə yaxından tanış oluruq. Bölmədə ümummilli lider Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın müasir ordu quruculuğuna verdiyi töhfələrdən bəhs edən kitablar yer alıb.

Hərbi hissənin zabiti Rail Ağayev şəxsi heyətin ictimai-siyasi hazırlığından söz açdı və mükəmməl tərtibata malik olan otaqların şəxsi heyətin istifadəsinə verilməsini yüksək qiymətləndirdi.

"Şəxsi heyətə ictimai-siyasi hazırlıqlarını artırmaq məqsədilə mütəmadi dərslər keçirilir, ölkədə ordu quruculuğu prosesinin günü-gündən möhkəmlənməsi məsələləri barədə məlumatlar çatdırılır. İctimai-siyasi hazırlıq dərslərində müasir Azərbaycan Ordusunun banisi ümummilli lider Heydər Əliyev irsinin dərindən öyrənilməsinə geniş yer ayrılır və bu mövzuda bilgilərin artırılması böyük əhəmiyyət kəsb edir. Ulu Öndərin sovet və müstəqillik dövründə ordu quruculuğu fəaliyyəti haqqında bilgilər, eyni zamanda, onun siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin respublikamızın müdafiə qüdrətinin gücləndirilməsinə göstərdiyi əsas diqqət və qayğısı barədə məlumatlar şəxsi heyətə ətraflı çatdırılır. İctimai-siyasi hazırlıq dərsləri nəzəri və təcrübi yolla həyata keçirilir."

Otaqda ilk diqqətimizi çəkən ulu öndər Heydər Əliyevin portreti və lövhədə əks olunan "Ordu quruculuğu işində qarşıda duran vəzifələri layiqincə yerinə yetirməliyik. Möhkəm, daim sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir. Bu sözləri həyata keçirmək, buna nail olmaq üçün müstəqilliyimizi həmişə qoruya bilən güclü ordumuz olmalıdır" kəlamı oldu.

Digər lövhədə Prezident, Ali Baş Komandan İlham Əliyevin "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır" dediyi fikirlər yer alıb. Burada Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin cəbhə bölgələrinə səfərlərini əks etdirən fotoşəkillərdən ibarət ayrıca guşə də yaradılıb. Lövhələrdə Azərbaycan Ordusu və dövlət atributlarımızın (bayraq, himn, gerb) yaranma tarixindən qısa məlumatlar verilib. Həmçinin "Qan yaddaşımız" başlığı altında erməni təcavüzü - azərbaycanlıların soyqırımı, deportasiyası tarixləri xronoloji ardıcıllıqla göstərilib. Qəhrəmanlıq tariximizdən Azərbaycan hökmdarlarının və sərkərdələrinin fotoşəkilləri stendlərdə yerləşdirilib. "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" başlıqlı lövhədə müxtəlif vaxtlarda ordu rəhbərliyinin cəbhə bölgələrində əsgər və zabitlərimizlə görüşlərinin fotoşəkilləri əks olunub.

Baş leytenant Ziya Quliyev şəxsi heyətə "Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" adlı mövzunu elan etdi. Zabit mövzuya başlamazdan öncə Azərbaycan Ordusunun tarixindən, Qarabağ müharibəsində ermənilərin insanlığa sığmayan vəhşiliyindən, müstəqillikdən sonra ordumuzun formalaşması və müasirləşməsi dövründən - ümummilli lider Heydər Əliyevin ordu quruculuğu fəaliyyətindən qısa məlumatları çatdırdı və Ulu Öndərin irsinin öyrənilməsinin əhəmiyyətini vurğuladı.

Bəzi mövzuların şərh, söhbət metodu ilə aparıldığını deyən zabit Ziya Quliyev Azərbaycan Ordusunun uğurlu əks-həmlə əməliyyatları nəticəsində qazandığı Aprel və Günnüt zəfərlərindən də söz açdı. "Qazanılan bu qələbələr göstərdi ki, ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Döyüşdə şəxsi heyətin ruh yüksəkliyi əsas amildir. Düşmən qarşımızda dayana bilmədi. Yalnız qaçmaqla canını qurtardı. Biz erməni işğalçılarının tapdağı altında olan torpaqlarımızın azadlığı uğrunda Ali Baş Komandanın "Döyüş" əmrinə hər an hazırıq. Dərslərdə xüsusi fəallığı ilə seçilən əsgərlərdən İlham Hacıyev, Azər Mirzəyev, Teymur Abdullazadə, Fərid Məmmədov, Seymur Abdullazadə və başqaları Aprel döyüşlərində şəhid olan hərbi qulluqçularımızın Vətən, torpaq uğrunda döyüşünü bir daha təkrarlamağa qadirdirlər."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.

**Suallar:**
**1. Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti.**
**2. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.**

*Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti*

Azərbaycan xalqının formalaşması dahi, uzaqgörən övladlarının ideyalarının və əməllərinin bilavasitə nəticəsidir. Azərbaycanın dövlətçilik ənənələri, elmi, mədəniyyəti, incəsənəti onların təfəkkürünün, qəhrəmanlıqlarının əməyinin və yaradıcılığının məhsuludur. Məhz bunların sayəsində ölkəmiz dünya sivilizasiyasına özünün layiqli töhfələrini verib, dövlətçiliyini yaradaraq qoruyub saxlayıb, müasir dünyanın bir hissəsinə çevrilib. Artıq Azərbaycan Respublikası dünya dövlətləri arasında öz layiqli yerini tutur, inkişaf etmiş dövlətlər sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləyir. Müstəqil Azərbaycan Respublikasının bu yolda inam və qətiyyətlə irəliləməsinin səbəbkarı ümummilli lider Heydər Əliyevdir. Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır.

Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Ordusu bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti cəlb edir. Ulu Öndərin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıran Ali Baş Komandan Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşdur. Ordu quruculuğunda mühüm rol oynayan kadr hazırlığı da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Bu gün Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev adına Hərbi Lisey fəaliyyət göstərir ki, bunun da ölkəmizin müdafiə qüdrətinin artırılmasında xüsusi rolu vardır. Eyni zamanda, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilir. Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

Son illərdə Azərbaycan rəhbərliyi belə bir düsturu özünün əsas fəaliyyət prinsipinə çevirib ki, hər bir ölkənin uğurunu, inkişafını müəyyən edən amillər içərisində iqtisadi potensial və güclü ordunun mövcudluğu ön plandadır. Müasir səviyyədə qurulan ordu həm müstəqilliyin möhkəmlənməsində, həm də ölkənin bölgədə geopolitik güc mərkəzinə çevrilməsində önəmli rol oynayır.

Təbii ki, Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnməlidir və bu iş lazımi səviyyədə həyata keçirilməkdədir. Ən inkarçı mövqedə dayanan qüvvələr və fərdlər də artıq etiraf edirlər ki, sabitlik, dinamik inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycan üçün əsas xarakterik cəhətlərdir və bu cəhətlər bir-birilə sıx bağlıdır. Güclü iqtisadi inkişaf, gəlirlərin durmadan çoxalması və hərbi xərclərin ilbəil artması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bildirmişdir: "Hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması dövlət siyasətimizin təzahürü, bizim prioritetimizdir. Son illər ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır və bizdə orduya, Silahlı Qüvvələrə ayrılmış xərclər Ermənistanın bütün dövlət büdcəsindən təxminən 2 dəfə çoxdur. Ən müasir silah-sursat alınır və bu silahların, texnikaların bir hissəsi ictimaiyyətə nümayiş etdirilmişdir. Bu gün daha çox yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik olan silahlar üstünlük təşkil edir. Bu silahları biz alırıq və alacağıq. Eyni zamanda, Azərbaycanda son illərdə yerli istehsal da təşkil edilibdir. Bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunub və bu proses davam etdirilir. Gələcəkdə biz sursatlarla, texnika ilə özümüzü tam şəkildə təmin etməliyik. Eyni zamanda, ən müasir müxtəlif texnikalar alınır və müasirləşmə prosesi daim aparılır. Görülən bütün bu işlərlə yanaşı, Azərbaycanda hərbi sənaye də çox sürətlə inkişaf edir. Bu sahəyə də böyük vəsait ayrılır, diqqət göstərilir. Son illər ərzində çoxsaylı zavodlar yaradılıbdır. Azərbaycanda ən müasir texnika istehsal olunur. Gələcəkdə bizim bu sahədə planlarımız çox genişdir və böyükdür. İstəyirik ki, bizə lazım olan hərbi sursat və texnika maksimum dərəcədə Azərbaycanda istehsal olunsun. Beləliklə, biz idxaldan da asılılığımızı azaldacağıq. Baxmayaraq ki, silah-sursatın alınması ilə əlaqədar qarşımızda heç bir problem yoxdur, bu proses davam edir və edəcəkdir".

Ermənistan tərəfi müxtəlif yollarla, hətta öz ölkəsində terror törətməklə danışıqlar prosesini dəfələrlə pozmuşdur. Buna baxmayaraq, biz daim konstruktivlik nümayiş etdirərək çalışmışıq ki, məsələ öz həllini sülh yolu ilə tapsın. Məsələ sülh yolu ilə həll olunsun və beləliklə, bölgədə sülh, əməkdaşlıq yaransın. O da həqiqətdir və biz dəfələrlə bunu demişik, bu gün həyat bizim dediyimizi təsdiq edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan bölgədə heç bir başqa məsələ öz həllini tapa bilməz. Ona görə yox ki, Azərbaycan buna etiraz edəcəkdir, biz öz milli maraqlarımızı bütün vasitələrlə müdafiə edirik, edəcəyik və bu sahədə uğurlara nail olmuşuq, sadəcə olaraq, ona görə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgədə gedən proseslərə ən ciddi mənfi təsir edən amildir. Bu gün Azərbaycan bölgədə o nadir ölkələrdəndir ki, öz hesabına yaşayır və gündən-günə yaşayış səviyyəsi yaxşılaşır. Bizim maliyyə imkanlarımız genişlənir və heç kimin yardımından asılı deyilik. Belə olan halda gələcəkdə də, Ermənistan ilə Azərbaycan arasında iqtisadi sahədə və ordu quruculuğundakı fərq daha da böyüyəcəkdir. Azərbaycanda əhalinin sayı ildən-ilə artdığı halda, Ermənistanda isə demoqrafik vəziyyət ildən-ilə pisləşir. Həm təbii azalma müşahidə olunur, köçüb gedənlərin sayı artır, hətta təmas xəttində belə canlı qüvvə çatışmır. Canlı qüvvələrinin Azərbaycanda olan insani potensialla müqayisə oluna bilməzliyini də nəzərə alsaq, üstünlüyün bizim tərəfimizdə olmasını heç kim inkar edə bilməz. Bizim maraqlarımızı heç kim kənara qoya bilməz və müəyyən mənada bizə qarşı təcridetmə planları baş tuta bilməz. Bundan sonra da milli maraqlarımızı bütün vasitələrlə müdafiə edəcəyik və bölgədə genişmiqyaslı əməkdaşlığın yaranması üçün səylərimizi göstərəcəyik. Bu əməkdaşlığın əsas amili Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Hələ ki, biz Ermənistan tərəfindən konstruktivlik görmürük. Onların həm vaxtuzatma, həm də beynəlxalq vasitəçiləri aldatmaq cəhdləri davam edir. Çox təəssüf hissi ilə deyə bilərik ki, bəzi beynəlxalq qurumlar onların qeyri-səmimi davranışına göz yumurlar. Ermənistan tərəfdən danışıqları pozmaq cəhdlərinə bəraət qazandırılması bizi çox narahat edir, çünki beynəlxalq aləm heç olmasa öz qərarlarına hörmət etməlidir. Bu olanlara rəğmən Azərbaycanın bütün istiqamətlərdə atdığı addımlar inamlı və uğurludur.

*Hərbi hissə və birləşmələrin əsas vəzifələri*

Azərbaycanda ordu quruculugu dövlət səviyyəsində, dövlətin yaxından iştirakı və qayğısı ilə aparılmaqdadır. Bu mühüm iş şəxsən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir. Dünyanın inkişaf etmiş ölkələrinin hərbi quruculuq təcrübəsi dərindən öyrənilir və müasir tələblərə cavab verən ordu yaratmaq istiqamətində işlər uğurla davam etdirilir. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub və yüksək hərbi intizamın saxlanılması üçün müvafiq tədbirlər görülərək islahatlar aparılır.

Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Artıq bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub.

Aprel döyüşləri və Naxçıvandakı uğurlu əməliyyatlar bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsi və peşəkarlığına xidmət edir. Bu gün ordumuz istənilən vaxt işğal altındakı torpaqlarımızı azad etməyə qadirdir və komanda-qərargah hərb oyunları, taktiki təlimlər bunun əyani sübutudur. Bu gün ərazi bütövlüyümüzə qarşı yönəldilən hər hansı təcavüzə layiqli cavab verməyə qadir və Vətənin maraqlarını şərəflə qoruyan Azərbaycan əsgəri var.

Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu yaddan çıxarmamalıdır ki, bu gün ərazi bütövlüyümüz bərpa olunmayıb və torpaqlarımızın 20 faizi ermənilərin işğalı altındadır. Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır və hərbi qüdrətini yüksəldir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirərək, hər an öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad etməyə hazır olmalıyıq. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmağı tələb edir. Bunun üçün isə Azərbaycan Ordusunun qarşısında 2020-ci tədris ilində aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

- 2019-cu tədris ilində döyüş və mənəvi-psixoloji hazırlıqda əldə olunmuş nəticələrlə kifayətlənməmək, döyüş hazırlığını daha da təkmilləşdirmək, şəxsi heyətin döyüş ruhunu yüksək səviyyədə saxlamaq;
- birlik, birləşmə və hərbi hissələrdə hərbi intizamı daha da möhkəmləndirmək;
- şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltmək, onlarda Hərbi anda, Vətənə, xalqa sədaqət hissləri aşılamaq və gücləndirmək;
- hərbi kollektivləri dostluq və əsgəri yoldaşlıq ruhunda tərbiyə etmək.

Bu gün Azərbaycan Ordusunun qarşısında torpaqlarımızı azad etmək üçün hər an döyüşə hazır olmaq vəzifəsi dayanır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır. Azərbaycan əsgəri bu döyüşlərdə tarixi qələbələr əldə etməklə nəyə qadir olduğunu bir daha sübut edəcəkdir.

**Qeyd:** *İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu şərh edərkən hərbi hissənin, öz bölməsinin 2019-cu tədris ilində döyüş və ictimai-siyasi hazırlığında qazandığı nəticələri bir daha dinləyicilərin nəzərinə çatdırmalı, 2020-ci tədris ilində hərbi hissənin, bölmənin qarşısına qoyulmuş tapşırıqların çatdırılmasına və izah edilməsinə xüsusi diqqət yetirməlidir.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Əbədiyaşar Ali Baş Komandan" adlı ekspedisiya uğurla başa çatıb

*Azərbaycan dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin keşikçisi olan ümummilli liderimiz Heydər Əliyev xalqımızın bu günə qədər yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. O, azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, təkcə milli varlığımızın deyil, həm də siyasi varlığımızın mühüm atributu kimi dəyərləndirirdi. Bütün dövrlərdə Ulu Öndər xalqına qarşı olan dərin sevgisini açıq şəkildə nümayiş etdirirdi. Dövlətçiliyimizin ən ağır dönəmlərində Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı, xalqımızı işıqlı gələcəyə ruhlandırmışdı. Dövlət quruculuğu istiqamətində mühüm addımlar atan Ulu Öndərin uğurlu siyasəti bu gün də ölkəmizin gücünə güc qatır. Bunun nəticəsidir ki, Azərbaycan beynəlxalq arenada mətin addımlarla irəliləyir.*





Xalqımız ağır günündə onun müdafiəsinə qalxan igidləri unutmadığı üçün ümummilli lider Heydər Əliyevi daim qəlbində yaşadır, doğum və anım günlərində onu yad etməyi özünə mənəvi borc bilir.

Ötən illərdə olduğu kimi, bu il də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən, Azərbaycan Respublikasının banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfat etməsinin 16-cı ildönümünə həsr edilən respublikamızın ərazisində yerləşən Böyük Qafqaz dağ silsiləsinin ikinci ən yüksək zirvəsi olan "Şahdağ" (4243 m) və "Heydər Əliyev" (3763 m) zirvələrinə "Əbədiyaşar Ali Baş Komandan" adlı ekspedisiya təşkil olunub. Ekspedisiya zamanı hərbi alpinistlər polkovnik-leytenant Zal Nəbiyev, baş leytenant Ülvi Məmmədli və baş leytenant Əhliman Qocayev zirvələrdə Azərbaycan Ordusunun və Hərbi Hava Qüvvələrinin şanlı bayraqlarını dalğalandırıblar.

Ekspedisiyadan qayıdan zabitlər redaksiyamızın qonağı oldular, təəssüratlarını bizimlə bölüşdülər. Hərbi Hava Qüvvələrinin zabiti polkovnik-leytenant Zal Nəbiyev bildirdi ki, ekspedisiya nə qədər çətin olsa da, Ümummilli Liderimizin anım gününə həsr olunması onu bir o qədər də əhəmiyyətli edirdi.

- Ekspedisiya zamanı hava şəraitinin əlverişli olması qarşıya qoyulan tapşırığın uğurla başa çatmasında vacib rol oynayırdı. Hava şəraitinin pis olması, ekspedisiyanın arzuolunmayan nəticə ilə yekunlaşmasına gətirib çıxara bilərdi. Ekspedisiyanın hər bir üzvü nəzərdə tutulan zirvəni fəth etməzdən əvvəl istənilən ekstremal şəraitə, aşağı temperatura, güclü qar yağıntısına, qatı dumana və qar uçqunlarına hazır olmalıdır. Azərbaycan Ordusunun hərbi qulluqçusu kimi biz istənilən ekstremal şəraitə hazır idik. Hərbçi olaraq bütün təhlükəni gözə alıb, addım-addım məqsədə doğru irəliləyirdik. Şükürlər olsun ki, bu dəfə də təbiət bizim tərəfimizdə idi. Ulu Öndərimizin cismani yoxluğunun 16-cı ildönümündə "Heydər Əliyev" zirvəsinə qalxmaq çox qürurverici idi. Hansı hissləri keçirdiyimizi sözlə izah etmək bir az çətindir. Zirvədə müasir Azərbaycan Respublikasının banisi ümummilli lider Heydər Əliyevin ruhu qarşısında işğal altında olan torpaqlarımızın azadlığı uğrunda əlimizdən gələni əsirgəməyəcəyimizi bir daha söz verdik.

Ekspedisiyadan danışan baş leytenant Ülvi Məmmədli dedi ki, dekabrın 11-də Bakı şəhərindən Quba rayonunun Xınalıq kəndinə yola düşdük. "Qızıl Qaya" massivinin 3000 metr hündürlüyündə düşərgə qurduq. Burada bizə lazım olan bütün əşya və ləvazimatlarımızı yerləşdirdik. Qarşımızda yalnız bir vəzifə dayanırdı: "Əbədiyaşar Ali Baş Komandan" adlı ekspedisiyanı uğurla başa çatdırmaq. Havanın soyuq, yamacların qarlı və sürüşkən olması tapşırığı daha da çətinləşdirirdi. Ancaq bunlar bizə əngəl törədə bilməzdi. Hər birimiz məqsədə doğru əzmkarlıqla irəliləyirdik. Azərbaycan Ordusunun və Hərbi Hava Qüvvələrinin bayraqlarını şərəflə zirvədə dalğalandırmağa hazır idik. İlk istirahət məntəqəmiz 3500 m hündürlükdə yerləşən "Qızıl Qaya" massivində oldu. Bir saatlıq fasilədən sonra yolumuza davam etdik. Qarşıda bizi "Heydər Əliyev" zirvəsi gözləyirdi. Zirvəyə çatanda hər birimizin yorğunluğu və gərginliyi bir anda yoxa çıxdı. Hava günəşli olsa da, küləkliydi. Hesab edirəm ki, ümummilli lider Heydər Əliyevin barelyefi önündə bir neçə dəqiqəlik anım bizi gözləyən ən böyük mükafat idi."



Qarşıya qoyulan tapşırığın öhdəsindən layiqincə gəldikdən sonra hərbçi alpinistlərimiz düşərgəyə geri döndülər. Günlərdir davam edən hazırlıq prosesi öz bəhrəsini vermişdi.

- Azərbaycan Respublikasının güc strukturları arasında ilk qış ekspedisiyasını uğurla yerinə yetirdiyimiz üçün çox qürurluyuq, - deyə baş leytenant Ülvi Məmmədli söhbətinə davam etdi. - Qeyd edim ki, bu zirvəyə indiyə qədər ancaq yay aylarında ekspedisiya təşkil olunurdu. Bu zirvəyə yaz, yay və payız fəsillərində qalxmağımız da burada hərəkət etmək alpinistdən həm psixoloji, həm də yüksək fiziki hazırlıq tələb edir. Bütün bunlar bizi daha diqqətli və məsuliyyətli olmağa səsləyirdi. Həm də unutmamalıyıq ki, alpinizm zarafatı sevmir. Etiraf edim ki, travers çətin idi. Ancaq eskpedisiya iştirakçıları arasında olan birlik hər şeyin öhdəsindən gəlməyə yardımçı oldu. Hazırlıq prosesi zamanı birinci dəfə ekspedisiyaya qatılan baş leytenant Əhliman Qocayevi, ilk növbədə, psixoloji cəhətdən rastlaşa biləcəyimiz çətinliklərə hazırladıq. Bu zaman video görüntülərdən, şəkillərdən və əlaltı vasitələrdən istifadə etdik. Polkovnik-leytenant Zal Nəbiyevin əvvəlcədən yetərincə bilik və təcrübəsi olduğu üçün onu hazırlamaq çətin olmadı. Yekunda eskpedisiyanın bütün üzvləri "Heydər Əliyev" zirvəsini fəth etməyə hazır idi.

Növbəti il üçün planlarından danışan zabitlər Z.Nəbiyev və Ü.Məmmədli bildirdilər ki, Azərbaycan Respublikasının üçrəngli bayrağını dalğalandırmaq, Dövlət himnini səsləndirmək, ordumuzun şan-şöhrətini bundan sonra da dünyaya yaymaq hər birimiz üçün müqəddəs və şərəfli vəzifədir.

- Torpaqlarımızın işğal altında olduğu bir vaxtda hər birimiz fəaliyyət göstərdiyi sahədə müsbət nailiyyətlər əldə etməyə çalışmalıyıq, - deyə polkovnik-leytenant Zal Nəbiyev sözünə davam etdi. - Çünki istənilən sahədə əldə etdiyimiz nailiyyətlər bizi qələbəyə daha da yaxınlaşdırır. İnanırıq ki, Azərbaycan əsgəri tezliklə işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad edəcək, xalqımıza qələbə sevinci yaşadacaq.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Hindistan və Rusiyanın birgə istehsalı olan səsdən sürətli raket sınaqdan keçirilib



Hindistanda Rusiya ilə müştərək müəssisədə istehsal olunan "BrahMos" səsdən sürətli qanadlı raketin uğurla sınaqları keçirilib.

Sınaqların kadrları Hindistan Hərbi Hava Qüvvələrinin rəsmi "Twitter" səhifəsində yerləşdirilib. Su-30 qırıcı təyyarəsindən atılan "hava-yer" sinfinə aid raket Odişa ştatı sahillərindəki hədəfi vurub. Raketin sürəti səs sürətindən 2,5-2,8 dəfə çoxdur. O, müxtəlif yerlərdən - sualtı qayıqlardan, gəmilərdən, sahil qurğularından, həmçinin təyyarələrdən atıla bilər.

Qeyd edək ki, 1998-ci ildə əsası qoyulan "BrahMos" Hindistan-Rusiya müştərək müəssisəsi Brahmaputra və Moskva çaylarının şərəfinə adlandırılıb. O, eyniadlı qanadlı raketlər, raket qurğuları, həmçinin raket idarəetmə sistemləri istehsal edir.

## ABŞ Baltikyanı ölkələrin hava hücumundan müdafiəsinə yardım edəcək



2020-ci ildə ABŞ Baltikyanı ölkələrdə regional hava müdafiəsinin inkişafı üçün 50 milyon dollar ayıracaq.

Bu barədə Estoniyanın "ERR.ee" portalı məlumat yayıb.

Məlumatda bildirilir ki, ABŞ-ın hərbi büdcəsi 2020-ci ildə 675,6 milyard dollardan 695,1 milyard dollara və ya təxminən 2,8 faizə qədər artacaq. ABŞ hərbçilərinin əmək haqqı 3,1 faiz artacaq ki, bu da son on ildə ən böyük artımdır.

Əsaslı tədqiqatlar və gələcək texnologiyaların təkmilləşdirilməsi, raketdən müdafiə və kibermühafizə üçün subsidiyalar da əhəmiyyətli dərəcədə artırılacaq. Baltikyanı ölkələrdə hava müdafiəsinə dəstək verməklə yanaşı, Ukraynanın təhlükəsizliyinin gücləndirilməsi üçün 250 milyon vəsaitin ayrılması da nəzərdə tutulur.

## Latviya, Estoniya və Finlandiya birgə brotexnika almağa hazırlaşır



Latviya, Estoniya və Finlandiya, gələcəkdə piyada qoşunlarının daşınması üçün yüksək mobil brotexnika alacaq.

Latviyanın Müdafiə naziri Artis Pabriks, Estoniyanın Müdafiə naziri Yuri Luyk və Finlandiyanın Müdafiə Nazirliyinin daimi katibi Yuka Yuusti Tallində niyyət məktubu imzalayıblar. Məktubda bu kimi nəqliyyat vasitələrinin alınması məsələsinin birgə araşdırılmasına başlanılmasından bəhs olunur. Latviyanın Müdafiə Nazirliyi LETA agentliyinə açıqlama verib ki, hər üç ölkənin silahlı qüvvələrinin ehtiyaclarını mümkün qədər dəqiq qiymətləndirmək və əlaqələndirmək üçün bu məsələ ilə bağlı məsləhətləşmələr aparmaq lazımdır.

## Çin öz istehsalı olan ilk aviadaşıyıcı gəmini istifadəyə verib



Çin yerli istehsalı olan "Şandun" adlı ilk aviadaşıyıcısını Haynan əyalətinin Sanya şəhəri limanında silahlanmaya daxil edib.

Çin lideri, Mərkəzi Hərbi Şuranın sədri Si Cinpin bu gün yerli vaxtla saat 16:00-da baş tutan təntənəli mərasimdə iştirak edib. "Şandun" bütünlüklə Çinin yerli sənayesinin gücü ilə istehsal edilən ilk aviadaşıyıcı gəmisidir. Uzunluğu 315 metr, eni 75 metr, çəkisi 70 min ton olan gəmi göyərtəsində 36 qırıcı təyyarə daşıya bilər. CXR, həmçinin Ukraynadan alınan "Varyaq" kreyserinin bazasında hazırlanan "Lyaonin" aviadaşıyıcısına da malikdir.

**AZƏRTAC-ın materialları əsasında**

*Könlüm şeir istəyir*

# Yaxşı şeirin yaşı əbədiyyətdir

*Oxucuların rəğbətini qazanmış Cabir Novruzu istər vətənpərvərlik, istər sosial, istərsə də məhəbbət mövzusunda yazdığı şeirləri həmişə maraqla oxunan şair kimi tanımışıq. Mövzu poetik səviyyədə təqdim edildə daha təsirli olur. Şeirin təsirliyi oxucunu düşündürməsidir, oxucunun düşüncələrinə hopmasıdır, yəni, sözdən yaşantılara keçməsidir. Xalq şairi Cabir Novruzun şeirlərində o amil həmişə olub. Ona görə də onlar zamanında da oxunub, indi də maraqla oxunur.*

*Yaxşı şeirin yaşı olmur...*

*Yaxşı şeir həmişə yaşayan duyğudur və onun yaşı əbədiyyətdir. Cabir Novruzun əksər şeirləri bu qəbildəndir.*

**"Azərbaycan Ordusu"**

## Gizli məhəbbət

Sən gizli gəlmisən ömrümə, inan,
Bu gizli eşq ilə yaşayacağam.
Dünyanın ən ağır yükü sayılan,
Gecikmiş məhəbbət yaşayacağam.

Sən mənim ömrümdə açan çiçəksən,
Onu ürəyimdə bəsləyəcəyəm.
Sən məni heç zaman görməyəcəksən,
Mən səni hər zaman gözləyəcəyəm.

Uzaqdan göz qoyub gözünə sənin,
Sanki görəcəyəm allahımı mən.
Düşüb qarış-qarış izinə sənin,
Əzbərləyəcəyəm yollarını mən.

Səni zərrə-zərrə kəşf edəcəyəm,
Səni milyon kərə kəşf edəcəyəm.
Ərini, oğlunu öyrənəcəyəm,
Rəngini, qoxunu öyrənəcəyəm.

Hər günü adınla başlayacağam,
Hər günü adınla bitirəcəyəm.
Səni röyalarda oxşayacağam,
Səni xəyallarda itirəcəyəm.

Sən məni heç zaman duymayacaqsan,
Mən bütün ömrünü izləyəcəyəm.
Sən mənə məhəl də qoymayacaqsan,
Mən səni həmişə səsləyəcəyəm.

Hər gün mənim üçün doğulacaqsan,
Hər gün mənim üçün yox olacaqsan.
Mənim sevincim də sən olacaqsan,
Mənim kədərim də sən olacaqsan.

Mən sənin adına hər saat, hər an
Qəlbimdə məktublar yollayacağam.
Sən heç vaxt fikrimdən çıxmayacaqsan,
Mən heç vaxt yadında qalmayacağam.

Beləcə həsrətlə qocalacağam,
Belə enəcəyəm, ucalacağam.
Keçib hər alovdan, keçib hər oddan.
Böyük əzabından şad olacağam.

Sən mənə həyatda ən doğma adam,
Mən sənə yaddan da yad olacağam
Sən ömür edəcəksən ayrı adamla,
Mən kiməm, nəçiyəm bilməyəcəksən.
Bir gün bu dünyadan sənin adınla
Köçüb gedəcəyəm bilməyəcəksən.

## Mənim ürəyim

Dünyada nə olsa ürəyimdədir,
Bir insan sevinsə, bir gül açılsa,
Bir ömür məhv olsa, bir ev uçulsa,
Bir güllə atılsa ürəyimdədir.
Qəlbimin minlərlə guşələri var,
Bütün yer üzərində rişələri var,
O dostdur əzəldən çiçəklə, qarla,
Orda dağ ucalır, meşə uyuyur.
Mənim ürəyimdə payız baharla,
Nifrət məhəbbətlə qoşa uyuyur.
Orda milyonların dərdi, istəyi,
Silah bazaları, körpələr evi,
Hicran saatları, görüş anları,
Bütün sevgilərin meridianları,
Mənim ürəyimi mərkəz seçirlər.
Mənim ürəyimdən gəlib keçirlər.
Sakit okeana atılan atom,
Min insan səsini batıran atom,
Yandırıb sinəmi deşdi ilk dəfə,
Mənim ürəyimə düşdü ilk dəfə.
Daim sevgi deyir, məhəbbət deyir,
Nurunu axıdır ürəyim mənim.
Sanki yumruq boyda yumşaq ət deyil,
Dünyanın oxudur ürəyim mənim.
Onun göyləri var dərindən-dərin,
Hisslər tufanıdır, hisslər mehidir,
Bütün dahilərin, sərkərdələrin,
Sevgidən tökülmüş movzeleyidir.
Onun min axarı, min baxarı var,
Əks edir torpağın, göyün səsini,
Onun radiotək dalğaları var,
Tutur yer üzünün hər nöqtəsini.
İnsanlar sevinsə, gülsə, çağlasa,
Coşar Kür ürəyim, Volqa ürəyim,
Kim isə hardasa, dolsa, ağlasa,
Tutar fəryadını dalğa ürəyim.
Kasıb ürəyimin dalğalarında,
Cənab ürəyimin dalğalarında,
Şimal ürəyimin dalğalarında,
Cənub ürəyimin dalğalarında,
Orda atomların gurultuları,
Orda sevənlərin pıçıltıları,
Necə igid səsi, ər səsidir o,
Bəşərin mənəvi mərkəzidir o.
O canlı, duyğulu insan kimidir,
Vardır həm sevinci, həm kədəri də,
Ürəyim bir teleekran kimidir,
Göstərir ən xırda ölkələri də.
Hər an, hər saniyə görünür orda,
Raketlər qəlbimin ekranlarında.
Buketlər qəlbimin ekranlarında,
Yurdsuzlar qəlbimin ekranlarında.
Böyük planeti hifs eləyir o,
Harda nə olursa, hiss eləyir o.
Köksümü dünyaya çevirirəm mən,
Ürəyə bənzəyir, cahan deyirlər.
Bununçun sevirəm, sevinirəm mən,
Bununçun adıma insan deyirlər.

## Eşq-məhəbbət ölməyəcək

Xalqlar üz-üzə dursa da,
eşq-məhəbbət ölməyəcək…
Bəşəriyyət qırılsa da,
eşq-məhəbbət ölməyəcək…
Məhəbbəti yerə basdır,
göyərib üzə çıxacaq,
Məhəbbəti məzara qoy,
məzardan səsi çıxacaq,
Poladın içində saxla,
poladı kəsib çıxacaq,
Sevən gözlər kor olsa da,
eşq-məhəbbət ölməyəcək…
Hətta günəş qaralsa da,
eşq-məhəbbət ölməyəcək…
Bütün ərzin yollarını
kərkədanlar kəssə belə,
Qəbilələr bir-birinin
başlarını kəssə belə,
Lap millətlər bir-birini
diri-diri yesə belə,
Ordular üzə dursa da,
eşq-məhəbbət ölməyəcək…
Hər şey tar-mar olsa da,
eşq-məhəbbət ölməyəcək…
Nə Leylinin, nə Məcnunun
kimsəyə kini olmayıb.
Sevənin sevgidən özgə
milləti, dini olmayır.
Qoca ərzin vallah, billah
eşqsiz günü olmayır,
Bu aləm zindan olsa da,
eşq-məhəbbət ölməyəcək…
Hər gün ölüm-qan olsa da,
eşq-məhəbbət ölməyəcək…
İnsan insanı duymasa
ruhu ölər, bağrı çatlar,
Yenə qardaş olacaqlar,
bir-biriylə bütün yadlar.
Məhəbbətdən aşağıdır
ədavətlər, küdurətlər,
And içirəm etiqada
eşq-məhəbbət ölməyəcək…
Sevənə yox zaval, xata,
eşq-məhəbbət ölməyəcək…
Ərzin vulkanları dönə
od dövrünə, köz dövrünə,
Dünya qayıda əvvəlki
su dövrünə, buz dövrünə,
Lap planet qədəm qoya
hətta insansız dövrünə,
Lap meymun əsri gəlsə də,
eşq-məhəbbət ölməyəcək…
Dünya ölüb-dirilsə də
eşq-məhəbbət ölməyəcək…

## Məhəbbətsiz necə ömür eylər insanlar...

Hamı laqeyd olub daş tək
hamı biganəyə dönmüş,
Ürəklər bum-buz olmuş boş,
soyuq bir xanəyə dönmüş,
Məhəbbət, sevgi qeyb olmuş,
tamam əfsanəyə dönmüş,
Küdurət indi hakimdir, odur ki,
hey axır qanlar.
Xudaya, bəs bu məhəbbətsiz
necə ömür eylər insanlar…

Bəşərçin ondan özgə
bir xilas yoxdur, ümid yoxdur,
Onunla bir keçən ömrə
ölüm yoxdur, süqut yoxdur.
Onun ölməzliyinə həm dəlil,
həm də sübut çoxdur,
Onunla göz açıb xilqət,
onunla dövr edir qanlar.
Xudaya, bəs bu məhəbbətsiz
necə ömür eylər insanlar…

Haçan Məcnun ilə Leyli
bu eşqi badəsin içdi,
Bu bir əfsanəyə döndü,
gəzib dildən-dilə düşdü.
Məhəbbətsiz min il sağ qalsa da
məxluq yenə heçdir,
Eh onsuz bir müqqəvadır
bütün hürriyi-qılmanlar,
Xudaya, bəs bu məhəbbətsiz
necə ömür eylər insanlar…

Çox adi daşdı-torpaqdı
məhəbbətsiz vətən varsa,
Məhəbbətdir bu torpaqda
vətənçün bir yatan varsa,
Onun uğrunda öl, can ver,
bir azca qeyrətin varsa,
Ölümdən güclüdür Cabir,
anacanlar, vətəncanlar,
Xudaya, bəs bu məhəbbətsiz
necə ömür eylər insanlar…

# İdman

## Azərbaycan idmançıları döyüş növləri üzrə dünya çempionatında 15 medal qazanıblar



Azərbaycan idmançıları Ukraynanın Xarkov şəhərində keçirilən döyüş növləri üzrə dünya çempionatında 15 medal qazanıblar.

Turnirdə şaolinin müxtəlif versiyaları üzrə keçirilən yarışlarda Elnur İsayev (25 kq), Arif Şıxızadə (55 kq), Murad Məmmədov, İsa Bayramov (hər ikisi 60 kq), Fərhad Abdilov, Tərlan Məmmədov, Toğrul Mikayılov, Ələsgər Hümbətzadə (hər dördü 65 kq), Cavid Güləliyev (75 kq), Ruslan Nəzərov (80 kq), Elçin Hüseynov (85 kq), Ruslan Məmmədhəsənov (90 kq) və Elsevər İsmayılov (90 kqdan yuxarı) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Nihad İbrahimov (60 kq) və İbrahim Talıbov (90 kq) isə finalda uduzaraq gümüş medalla kifayətlənib.

## Kikboksçularımız Kiyevdən 7 medalla qayıdıblar



Kikboksçularımız Kiyevdə təşkil olunan WAKO (Dünya Kikboksinq Assosiasiyası Təşkilatı) versiyası üzrə "Wizard - Open Rıng 2019" beynəlxalq turnirdə uğurla çıxış edibər.

Yeniyetmələr və böyüklər arasında keçirilən yarışda Azərbaycan Kikboksinq Federasiyasının (AKF) "Sərhədçi" komandası 7 medal qazanıb.

Əməkdar məşqçi, dünya çempionu Fuad Zeynalovun rəhbərliyi altında Elməddin Baxşəliyev (67 kq), Elşad Şahbazov (71 kq), Elcan Alıkişiyev (81kq) qızıl, Vüsal Kazımov (54 kq), Zöhrab Əsədov (28 kq) gümüş, Məqsəd Hacıyev (60 kq) və Nihad Hüseynov (45 kq) isə bürünc medala sahib olublar.

## Kadetlər arasında kikboksinq turnirinin qalibləri müəyyənləşib



Azərbaycan Kikboksinq Federasiyasının (AKF) təşkilatçılığı ilə kadetlər arasında Bakı Həvəskar və Peşəkar Kikboksinq klubunun açıq birinciliyi keçirilib.

Yarışda 150-dən çox idmançı birincilik uğrunda mübarizə aparıb.

Komanda hesabında Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin kikboksçuları birinci yeri tutublar. "Ağ canavar"ın təmsilçiləri ikinci, "Kobra" komandası üçüncü pillədə qərarlaşıblar.

## Həmyerlimiz Moskvada beynəlxalq müsabiqənin gümüş mükafatçısı olub



Moskvada idman jurnalistləri arasında "Energiya pobed" adlı ənənəvi doqquzuncu müsabiqəfestivala yekun vurulub.

Tanınmış idman yazarı Rasim Mövsümzadə beynəlxalq müsabiqənin əcnəbi rusdilli kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında "Ən yaxşı yazı" nominasiyasında ikinci yeri tutaraq gümüş medalla təltif olunub. Həmyerlimizin "Sportsman" jurnalında çıxan "Məlum və naməlum Qullit" yazısı beynəlxalq festivalda fərqlənib. Burada azərbaycanlı yazarın futbolla bağlı uşaqlıq xatirələri, ötən əsrin 80-ci illərinin sovet mətbuatı, həmçinin nüfuzlu "Qızıl top" mükafatı və məşhur niderlandlı futbolçu Ruud Qullit barədə maraqlı faktlar yer alıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № **361**
Sifariş № **1034**
Nüsxə **3950**